*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
***ISSN: 2148-2292***
***10 (1) 2023***
*https://doi.org/ 10.46868/atdd.2023.*




***Araştırma Makalesi | Research Article***
***Geliş tarihi |Received :10.07.2023***
***Kabul tarihi |Accepted: 25.07.2023***
***Yayın tarihi |Published : 25.08.2023***



**Saida Babayeva**

*https://orcid.org/0000-0002-9876-9832*
*Ganja State University, head teacher of Azerbaijan history department, doctor of philosophy in history, Azerbaijan, saidababayeva@gmail.com*

***Atıf Künyesi | Citation Info***
Babayeva, S. (2023). Arxeologiya Elminin İnkışafında Heydər Əliyev Mərhələsi (Gəncəbasarda Aparılan Arxeoloji Materallar Əsasında). *Akademik Tarih ve Düşünce Dergisi*, *Azerbaycan Halkının Milli Lideri Haydar Alirza Oğlu Aliyev'in Doğumunun 100. Yılı Özel Sayısı, 10* (1), 282-290.

# Arxeologiya Elminin İnkışafında Heydər Əliyev Mərhələsi (Gəncəbasarda Aparılan Arxeoloji Materallar Əsasında)

***Xülasə***

*Dünyanın ən qədim yaşayış məskəni kimi tanınan Azərbaycan bütün dövrlərə aid maddi-mədəniyyət abidələri ilə zəngindir.Bu abidələrə maraq XIX əsrin ikinci yarısından başlamış, dünya şöhrətli siyasətçi,böyük zəka sahibi Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə geniş vüsət almışdı.Azərbaycan kommunist partiyası mərkəzi komitəsinin və Azərbaycan SSR nazirlər sovetinin "Azərbaycan SSR-də şəhərsalma, memarlıq və arxeologiya abidələrinin qorunması, bərpası və istifadəsinin yaxşılaşdırılması tədbirləri haqqında" 436 № li, 15 sentyabr 1981-ci il tarixli qərarının qəbul edilməsi bütün dövrlər üçün aktual olan qərar idi. Arxeologiya,Etnoqrafiya və Antopologiya institutunda alimlərin apardıqları tədqiqatların nəticəsində ölkəmizin dünyada ən*

*qədim insan məskəni olması maddi faktlarla sübuta yetirilmişdi. Məhz ümumilli liderin təşəbbüsü ilə Azərbaycanın Qarabağ, Naxçıvan, Abşeron, Gəncə-Qazax, Quba, Xaçmaz, Lənkəran, Masallı, Lerik, Astara və digər bölgələrinə təşkil olunmuş arxeoloji ekspedisiyaların fəaliyyəti nəticəsində yeni-yeni abidələr qeydə alınaraq, tədqiq olunmağa başlanmışdır. Gəncəbasarda aparılan arxeoloji tədqiqat işləri nəticəsində zəngin maddi-mədəniyyət nümunələrinin tapılması ərazinin Qafqaz Albaniyası tarixində xüsusi yerə malik olduğundan xəbər verir. Arxeoloji tədqiqatların nəticələri e.ə IV-I minilliklərdə Yaxın Şərq və Ön Asiyanın ticarət mərkəzini əlaqələndirən əsas karvan yollarının da Gəncədən keçdiyini göstərir ki, Gəncənin bu ticarət yolu üzərində inkişaf tapdığını və bütün Cənubi Qafqazda mühüm mədəniyyət mərkəzlərindən biri olduğunu təsdiqləyir. Gəncə ətrafında Makedoniyalı İsgəndərin adına kəsilmiş gümüş pul dəfinəsinin tapılması artıq antik dövrdə ərazidə yüksək dərəcədə inkişaf etmiş sənətkarlıq ticarət mərkəzi kimi tanınan iri şəhərəi Gəncə olduğunu isbat edir.Məqalədə H.Əliyevin Gəncəbasar bölgəsinin arxeologiya tarixinin inkişafındakı xidmətləri araşdırılıb.*

***Açar sözlər:*** *arxeologiya, Heydər Əliyev, Gəncə, mədəniyyət, zəngin, tarix, müasir*

# Heydar Aliyev Stage in the Development of Archeology Science (Based on Archaeological Materials Conducted in Ganjabasar)

***Abstract***

*Azerbaijan, known as the oldest settlement in the world, is rich in material and cultural monuments of all eras. Interest in these monuments began in the second half of the 19th century, and became widespread during the time when Heydar Aliyev, a world-famous politician and a great intellectual, led Azerbaijan. The adoption of the Decision No. 436 dated September 15, 1981 of the Central Committee of the Communist Party of Azerbaijan and the Council of Ministers of the Azerbaijan SSR "On measures to improve the protection, restoration and use of urban planning, architectural and archaeological monuments in the Azerbaijan SSR" was relevant for all times. As a result of research conducted by scientists at the Institute of Archeology, Ethnography and Anthropology, it was proved by material facts that our country is the oldest human settlement in the world. As a result of the activities of archaeological expeditions to Karabakh, Nakhchivan, Absheron, Ganja-Gazakh, Guba, Khachmaz, Lankaran, Masalli, Lerik, Astara and other regions of Azerbaijan, new monuments were recorded and researched. As a result of the archaeological research conducted in Ganjabasar, the discovery of rich material and culture samples indicates that the area has a special place in the history of Caucasian Albania. The results of archaeological research show that the main caravan routes connecting the trade center of the Middle East and Front Asia passed through Ganja in the 4th-1st millennia BC, which confirms that Ganja developed on this trade route and is one of the important cultural centers in the entire South Caucasus. The discovery of a hoard of silver coins minted in the name of Alexander the Great around Ganja proves that it was Ganja, a*

*large city known as a highly developed craft and trade center in the area already in antiquity.The article examines the services of H. Aliyev in the development of the archaeological history of Ganjabasar region.*

***Keywords:*** *Archeology, Heydar Aliyev, Ganja, culture, rich, history, modern*

## Giriş

Dünyanın ən qədim yaşayış məskəni kimi tanınan Azərbaycan bütün dövrlərə aid maddi mədəniyyət abidələri ilə zəngindir.Bu abidələrə maraq X1X əsrin ikinci yarısından başlamış, dünya şöhrətli siyasətçi ,böyük zəka sahibi Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə geniş vüsət almışdır. Azərbaycan kommunist partiyası mərkəzi komitəsinin və Azərbaycan SSR nazirlər sovetinin "Azərbaycan SSR-də şəhərsalma, memarlıq və arxeologiya abidələrinin qorunması, bərpası və istifadəsinin yaxşılaşdırılması tədbirləri haqqında" 436 № li, 15 sentyabr 1981-ci il tarixli Qərarının qəbul edilməsi bütün dövrlər üçün aktual olan qərar idi (Əliyev, 2009, s. 200) "Bu qərar Azərbaycanın tarixi abidələrinin qorunması, tədqiqi və təbliği ilə əlaqədar problemlərin həlli istiqamətlərinin müəyyənləşdirilməsi baxımından mükəmməl bir proqram sənəd olub, nəinki 80-ci illər üçün, eyni zamanda bu günümüz və gələcək fəaliyyət üçün aktuallığını saxlamaqdadır" (https://www.aznews.az/news/investigation/312040.html). Arxeologiya, Etnoqrafiya və Antopologiya institutunda alimlərin apardıqları tədqiqatların nəticəsində ölkəmizin dünyada ən qədim insan məskəni olması maddi faktlarla sübuta yetirilmişdi. Tədqiqatlar nəticəsində Azərbaycanın dünyada ən qədim insan məskənlərindən və sivilizasiya mərkəzlərindən biri olması elmi əsaslarla sübuta yetirilib.

Heydər Əliyevin Arxeologiya elminin inkişafı ilə bağlı göstərişləri rəsmi dövlət sənədlərində əksini tapmış, aparılan genişmiqyaslı tədqiqatlarda nəticəsini göstərmişdi. Azərbaycanını bütün bölgələrində arxeoloji ekspedisiyalar fəaliyyət göstərib, xalqımızın maddi-mədəni irsinə dair yüz minlərlə qədim nümunələr - arxeoloji materiallar toplanıb. Böyük şəhərlərlə yanaşı, Azərbaycanın demək olar ki, bütün rayonlarında tarix-diyarşünaslıq muzeyləri yaradılıb, qədim və yaxın tariximizin ən nəfis nümunələri həmin muzeylərə toplanıb və qorunub. Arxeoloq alimlərimizin apardıqları tədqiqatlar nəticəsində Azərbaycanın dünyada ən qədim insan məskənlərindən və sivilizasiya mərkəzlərindən biri olması elmi əsaslarla təsdiqini tapıb. Azərbaycanın Qarabağ, Naxçıvan, Abşeron, Gəncə-Qazax, Quba, Xaçmaz, Lənkəran, Masallı, Lerik, Astara və digər bölgələrinə təşkil olunmuş arxeoloji ekspedisiyaların fəaliyyəti nəticəsində yeni-yeni abidələr qeydə alınaraq, tədqiq olunmağa başlanmışdır. Gəncəbasarda aparılan arxeoloji tədqiqat işləri nəticəsində burada İlk

orta əsrlər dövrünə aid zəngin maddi-mədəniyyət nümunələrinin olması ərazinin Qafqaz Albaniyası tarixində xüsusi yerə malik olduğundan xəbər verir

Son illərdə "Avropa alimləri ilə birgə apardığı elmi araşdırmalar zamanı Azərbaycan ərazisində ibtidai insanların 2,5 milyon il bundan əvvəllərdən məskunlaşmağa başlamaları arxeoloji materiallar əsasında sübuta yetirilmişdir. Halbuki 1953-cü ilə qədər respublikamızın ərazisində qədim insan düşərgələrinin olmadığı və burada ibtidai insanların yaşamadıqları göstərilirdi". Ancaq Azərbaycan arxeoloqlarının apardıqları elmi tədqiqatlar bu fikrin yanlış və əsassız olduğunu göstərdi, respublikamızın ərazisinin insanın yarandığı və formalaşdığı ərazilərdən biri olduğu elmi materiallar əsasında sübuta yetirildi. Eyni zamanda, Azərbaycanda qədim sivlizasiyanın özünəməxsus xüsusiyyətləri olduğunu və bunun əsasında ölkəmizdə, Qafqaz və Yaxın Şərq ərazisində ən qədim arxeoloji mədəniyyətin müəyyən olunmasına şərait yaratdı. Bu qədim mədəniyyət tarixə Quruçay arxeoloji mədəniyyəti kimi daxil olmuşdur"(Cəfərov, 2013). Bütün bu elmi nailiyyətlərin əldə olunmasında Heydər Əliyevin xüsusi xidmətləri olmuşdur. Ulu öndərin Azərbaycanda siyası hakimiyyətə gəlməsi ilə əlaqədar olaraq arxeoloji, tarixi və memarlıq abidələrinin elmi tədqiqi üçün əlverişli şərait yaradılmağa başlandı.

Mənbələrdə və müasir dövr tədqiqatçılarının əsərlərində Gəncəbasar sözü müxtəlif şəkildə izah edilir. Akademik Ziya Bünyadov bu əraziyə Gəncə və Şəmkir çaylarının suvara bildiyi torpaqların daxil olduğunu bildirir. Tədqiqatçılardan bəziləri Gəncəbasar dedikdə, Gəncə küləyinin tuta bildiyi ərazinin, ikinci qrupu Gəncəyə yaxın, onun ətrafındakı yaşayış məskənlərinin, bir qismi bu ad altında Gəncəni almağın, ona hücum etməyin mümkün olduğu, digərləri isə vaxtilə iqtisadi və siyasi cəhətdən Gəncənin təsiri altında olan bütün yerlərin nəzərdə tutulduğu fikrini irəli sürürlər.

"Gəncəbasar bitki aləminə görə meşəlik və yarımsəhralıqlara bölünür.Əsas meşəliklər dağlıq hissələrdə, qismən də çay vadilərində yayılmışdır.Ərazinin faydalı qazıntılarının əsasını müalicəvi əhəmiyyətli neft, kükürd kolçedanı, dəmir filizi, alünit, kobalt, qızıl yataqları, mərmər, kaolin, çaxmaq daşı, kəhrəba, əhəng daşı və gil təşkil edir. Gəncəbasarın daxil olduğu Gəncə iqtisadi rayonunu «Azərbaycan Uralı» adlandırılması da burada faydalı qazıntıların çoxluğu ilə bağlıdır" (Gəncənin Maddi Mədəniyyət Abidələri, 2004). Gəncəbasardan Kür, Xram, Korçay, Görançay, İncəçay, Kürəkçay, Qaraçay, Qoşqarçay, Şəmkirçay və s. çaylar axır. Onlar öz başlanğıclarım Murov dağının ətəklərindən götürür. Xırda çayların bəziləri Kürə tökülür. Digərləri isə suvarmada mühüm rol oynayırlar. Müstəqillik əldə olunana qədər Azərbaycanda arxeoloji işin qeyri-bərabər aparılması

səbəbindən Gəncəbasarın öyrənilməsinə də lazımi diqqət yetirilməmişdir. Nəticədə baxımsızlıq üzündən bölgədəki abidələrin bir çoxu tamamilə dağıdılmış, onlardan əldə edilən təsadüfi tapıntılar isə Azərbaycanın, Gürcüstanın, Moskvanın, Sankt-Peterburqun, hətta Almaniyanın muzeylərinə aparılmışdır. Bu sahədə əsas işlər E. Resler, B. Rozendorf, B. Belk, Jak de Morqan, Y. Hümmel tərəfindən görülmüşdür.

Gəncəbasardakı qədim yolların izlərini 1938-ci ildə E.A.Paxomovun rəhbərliyi ilə Gəncə ətrafını öyrənən ekspedisiya nəzərdən keçirmişdir. Gəncə çayı üzərində İlk orta əsrlər dövrünün sonlarında salınmış daş körpülər və eləcə də orta əsrlərə aid qalalar qeydə alınınışdır. İ. Cəfərzadə "Qədim Gəncənin tarixi-arxeoloji oçerki" adlı əsərində mənbələrə və arxeoloji materiallara istinad edərək şəhərin yaranma tarixi, sənətkarlığı, ticarəti, memarlığı və s. haqqında mülahizələr söyləmişdir.

"Gəncə şəhərinin tarixi oçerki" adlı kitabın müəllifi M.M.Altman isə Gəncənin hələ lap qədim zamanlarından başlayaraq XVII əsrə qədərki tarixi haqqında qısa məlumatlar vermişdir. Azərbaycanda və bütövlükdə Cənubi Qafqazda bu dövr abidələrinin tədqiq edilməsində «Mingəçevir III-VIII əsrlərdə» kitabı xeyli əhəmiyyətlidir. Kitabda tarixi mənbələr və arxeoloji materiallar əsasında İlk orta əsr şəhərlərinin yaranması, inkişafı, tənəzzül səbəbləri və s. tədqiq edilmiş, faydalı nəticələrə gəlinmişdir.

Sənətkarlıq müəyyən qədər zəifləsə də ticarət əlaqələri artmaqda idi. Bu ərazinin imperiya tərkibində olması ilə əlaqədar idi. Artıq Ərəb Xilafəti dövründə imperiya çox böyük bir ərazini əhatə etdiyinə görə Azərbaycan şəhərləri də, o cümlədən, Gəncəbasar ərazisinə daxil olan şəhər və şəhər məntəqələri də öz ticarət-mədəni əlaqələrini genişləndirirdilər. Erkən orta əsrlər dövründə Azərbaycanda bir sıra sənətkarlıq sahələri öz fəaliyyətini davam etdirmişdir. Müəyyən dərəcədə zəifləmə baş versə də sənətkarlıq sahələri daxilində ixtisaslaşma gedirdi ki, bu da yeni-yeni sənət sahələrinin möhkəmlənməsinə gətirib çıxarırdı. Gəncəbasar ərazisində aparılan arxeoloji qazmtılar nəticəsində əldə olunan materiallar əsasmda söyləmək mümkündür ki, erkən orta əsrlərdə metalişləmə, dulusçuluq, şüşə istehsalı, toxuculuq, daşişləmə, ağacişləmə, sümükişləmə, boyaqçılıq və digər sənət sahələri mövcud olmuşdur. Əldə olunan materiallar içərisində yerli istehsal və gətirilmə məmulatlar vardır. Gətirilmə məmulatlar bir daha ticarət-mədəni əlaqələrin inkişafını göstərirdi.

Aparılmış elmi-tədqiqat işləri sübut edir ki, sənətkarlıq həyatına aşağıdakı amillər xüsusi təsir göstərmişdir: 1) Xammal mənbələrinin mövcudluğu, bu mənbələrin coğrafi məkanı; 2) Xammal mənbələrinin mülkiyyət forması; 3) Xammalın hasilində istifadə edilən texnologiyanm, istehsal vərdişlərinin səviyyəsi; 4) Xammalın keyfiyyəti; 5) Siyasi-hərbi

vəziyyət; 6) İqtisadiyyatın bazara olan tələbatı; 7) Ticarət əlaqələrinin səviyyəsi, ticarət yollarnın vəziyyəti və təhlükəsizliyi; 8) İstehsal ocaqları, vasitələri, istehsalın texniki imkanları; 9) Vergi sistemi və onun səviyyəsi; 10) Sənətkar təşkilatlarının mövqeyi və digər aimllər.

Tədqiqat əsasında müəyyən edilmişdir ki, erkən orta əsrlərdə metalişləmə sənəti xüsusi əhəmiyyətli olmuşdur. Arxeoloji materiallar içərisində metal məmulatlarının da çoxluq təşkil etməsi bunu bir daha təsdiq edir. Arxeoloji qazıntılar nəticəsində erkən orta əsr təbəqələrindən əldə olunan bəzək əşyaları, zərgərlikdə istifalə olunan əmək alətləri, baş bəzəkləri, boyun, yaxa, geyim, qol bəzəkləri və onlarm hissələri zərgərlik sənətinin bu dövrdə öz əhəmiyyətini saxladığmı göstərir. Baş bəzəkləri içərisində sonu müxtəlif formalara salınınış saçın bərkidilməsi və digər məqsədlərlə istifadə edilmiş sancaqlar xüsusi yer tutur. Onlar iynə formasmda olmuş, sonluqları şarşəkilli, kvadrat və quş fiqurlu şəklində olmuşdur. Boyun, döş və yaxa bəzəkləri içərisində asmalar daha əhəmiyyətli olmuşdur. Arxeoloji qazıntılar nəticəsində daha çox asmalar, o cümlədən, zəncir və medalyonlar aşkar olunmuşdur. Əldə olunmuş materiallara əsasən zərgərlik sahəsində boyun, döş və yaxa bəzəklərinin əsas istehsal obyektlərindən olduğu təsdiqlənir. Zəncirlər daha çox gümüşdən, medalyonlar isə mis və gümüş materialdan hazırlanırdı. Dairəvi medalyonlar ənənəvi səciyyə daşıdığından özündə antik dövrün xüsusiyyətlərini də saxlamışdır. Geyim bəzəkləri içərisində əsasən düymələr, toqqalar, kəmərlər üstünlük təşkil etmişlər. Qol bəzəkləri sırasında isə bilərziklər və üzüklər mühüm əhəmiyyətə malik olmuşdur. Bilərziklər və üzüklər arxeoloji materiallar içərisində xüsusi olaraq tədqiq edilmişdir. Çünki onların zərgərlik baxımından işlənilməsi digərlərindən daha məharətlə hazırlanması ilə fərqlənmişdir. Bu cür zərgərlik məmulatları xarici ticarət əlaqələrində də daha çox işlənən məmulatlardan olmuşdur. Erkən orta əsrlərdə dulusçuluq sənəti də özünəməxsus şəkildə davam etmişdir. Arxeoloji qazıntılardan əldə olunmuş məmulatlar içərisində xeyli miqdarda keramika məmulatının və hissələrinin aşkar olunması dulusçuluğun tədqiqinə imkan vermişdir. Keramika məmulatına əsasən dövrün dulusçuluğunda baş verən dəyişiklikləri üzə çıxarmaq və onların xüsusiyyətlərini araşdırmaq mümkün olmuşdur. Qeyd olunduğu kimi, aparılmış arxeoloji qazmtı işləri nəticəsində kütləvi şəkildə saxsı məmulatı aşkar olunmuşdur. Tapıntılar içərisində istər kəmiyyət, istərsə də keyfiyyət baxımından fərqlənən qablar xüsusi yer tutur. Dövrün memarlıq və tikinti keramikası öz müxtəlifliyi ilə seçilirdi. Ticarət əlaqələri nəticəsində Gəncəbasar ərazisinə gətirilmiş tikinti keramikası da ayrıca tədqiqat obyekti olmuşdur. Arxeoloji qazıntıların dulusçuluq sənətinin tədqiqi üçün zəruri olan dulusçu

məhəllələri, dulus kürələri və emalatxanaları, istifadə olunan əmək alətləri və çıxdaşlar əldə olunmuşdur. Tədqiqatlar nəticəsində əldə olunmuş keramika nümunələri öz tiplərinə görə xüsusi qruplara bölünərək elmi cəhətdən araşdırılmışdır. Gəncəbasar ərazisində erkən orta əsr mədəni təbəqələrindən şüşə məmulatı digər sənət sahələrinin materiallarma nisbətən az tapılsa da şüşə istehsalının da tədqiqi göstərir ki, artıq eramızm ilk əsrlərindən Qafqaz Albaniyası ərazisində, o cümlədən, Gəncəbasarda şüşə istehsalı xüsusi sahəyə çevrilməyə başlamışdır. Tədqiqatlar göstərir ki, sənətkarlıq sahələri sırf ayrılıqda deyil, bütövlükdə öz varlığını qoruyub saxlayırdı. Başqa sözlə, sənətkarlıq sahələrinin daxili əlaqələri sıx idi. Hər bir sənət sahəsinin inkişafı metalişləmə sahəsi ilə birbaşa əlaqədar idi. Eyni zamanda metalişləmə sənəti də digər sənət sahələrindən ayrılıqda inkişaf edə bilməzdi. Arxeoloji materiallar əsasında toxuculuğun müxtəlif şəkildə davam etdiyini söyləmək mümkündür. Tədqiqatlar Gəncəbasar ərazisində istehsal olunan toxuculuq məhsullarının ölkənin digər ərazilərində də bazara çıxarıldığını göstərir. Eyni zamanda Qafqaz Albaniyasının digər ərazilərində istehsal olunan toxuculuq məhsullarının Gəncə bazarlarında satışını izləmək mümkündür.Sənətkarlıq sahələri içərisində ağacişləmə, sümükişləmə və daşişləmə kimi sənət sahələrinin də bu dövrdə mövcudluğunu söyləmək olar. Erkən orta əsr təbəqələrindən əldə olunan materiallar içərisində ağac, sümük və daş alətlərinin olması bunu söyləməyə əsas verir. Boyaqçılıq sənəti haqqında da müəyyən materiallara əsaslanaraq fikirlər söyləyə bilirik.Bu sənət sahələri haqqında dövrün mənbələri də məlumat vermişdir. Həm arxeoloji materiallara, həm də yazılı mənbələrə əsasən sənətkarlığın müxtəlif sahələri haqqında elmi fıkirlər söylənmişdir.

Gəncəbasarın arxeoloji baxımdan sistemli şəkildə öyrənilməsinə 1988-ci ildən başlanılmışdır. Həmin ildən yaradılmış Gəncəbasar arxeoloji dəstəsi ərazidə onlarla müxtəlif tipli və ayrı-ayrı dövrləri əhatə edən yaşayış yerləri, qəbir abidələri, müdafiə istehkamları və s. arxeoloji abidələr qeydə almış, onlarda müntəzəm şəkildə arxeoloji tədqiqat işləri aparılmışdır. Görülən işlərin nəticələri «Gəncəbasar IV-XIII əsrlərdə» (Bakı 1993), «Goranboy orta əsrlərdə» (Bakı 1990), «Daşkəsən - Dəstəfur» (Bakı 2000), «Samux mahalının tarixi -arxeoloji tədqiqinə dair» (Bakı 2000), «Qoşqarçay və Kürəkçay hövzələrinin tarixi arxeoloji tədqiqi» (Bakı 2000), «Nizami əsrinin Gülüstan qalası» (Bakı 1989),” Gəncəbasarın alban dövrü xristian abidələri”(Bakı, 2000) və s. adlı monoqrafıyalarında və onlarla elmi məqalələrdə öz əksini tapmışdır. AMEA-nın müxbir üzvü,prof. Arif Məmmədovun ən qədim zamanlardan XIX əsrə qədərki dövrləri əhatə edən «Gəncə və ətrafının tarixi-arxeoloji tədqiqi» (Məmmədov, 2014) adlı əsəri və apdıcıl olaraq apardığı

tədqiqatları ilə Arxeologiya elmində mübahisəli olan çox məsələlərə aydınlıq gətirmiş, elmi baxımdan doğru olan faktları üzə çıxarmışdı.Gəncə şəhərinin tarixi ilə bağlı mübahisə doğuran fikirlərə elmi cəhətdən əsası olan cavabı belə yekunlaşdırır: "Arxeoloji tədqiqatların nəticələri e.ə IV-I minilliklərdə Yaxın Şərq və Ön Asiyanın ticarət mər kəzini əlaqələndirən əsas karvan yollarının da Gəncədən keçdiyini göstərir ki, Gəncənin bu ticarət yolu üzərində inkişaf tapdığını və bütün Cənubi Qafqazda mühüm mədəniyyət mərkəzlərindən biri olduğunu təsdiqləyir. Gəncə ətrafında Makedoniyalı İsgəndərin adına kəsilmiş gümüş pul dəfinəsinin tapılması artıq antik dövrdə ərazidə yüksək dərəcədə inkişaf etmiş sənətkarlıq ticarət mərkəzi kimi tanınan iri şəhərəi Gəncə olduğunu isbat edir. Gəncə şəhərinin əsasının e.ə.I-V əsrdə Makedoniyalı İsgəndər tərəfindən qoyulması ilə bağlı əfsanəvi məlumatlar da var.N.Gəncəvinin "İsgəndərnamə"poemasında İsgəndərlə Nüşabənin görüşü zamanı yeni bir şəhərnin əsasının qoyulduğu da bildirilir. Həmin dövrdə Bərdə şəhəri mövcud olduğundan və Nüşabə də onun hökmdarı kimi tanındığından, yeni əsası qoyulan şəhərin Gəncə olduğunu ehtimal etmək olar. Lakin Makedoniyalı İsgəndərin imali Azərbaycanda olmadığı haqda məlumatları əsas götürsək, onda bu fikir yalnız ehtimal xarakteri daşıya bilər. Həm də həmin dövrdə Gəncə artıq şəhər kimi mövcud olduğundan, burada şəhərin əsasının qoyulmasından yox, tam dağıntılara mərjuz qalmış şəhərin yerdəyişməsindən, yaxud bərpasından söhbət gedə bilər" (Məmmədov, 2014). Prof.Arif Məmmədov müsahibələrində Gəncə şəhərinin arxeoloji tədqiqində yeni mərhələ başlandığı" fikrini apardıqları arxeoloji tədqiqatlara əsasən söyləyir və bu çətin və şərəfli işdə dövlətimizin dəstəyinə və yetişdirdiyi kadrlara güvənir.

**Nəticə**

Gəncəbasarın erkən orta əsrlər dövrünə aid yaşayış yerlərində və onların bu dövrə aid təbəqələrində aparılmış arxeoloji qazmtıların və dövrün sənətkarlığının təhlili əsasında belə bir nəticəyə gəlmək olar ki, tədqiq olunan dövrdə Qafqaz Albaniyasında sənətkarlıq antik dövrə nisbətən zəifləmiş, lakin bəzi sahələr öz əvvəlki qüdrətini qoruyub saxlaya bilmişdir. Məlum olduğu kimi III əsrdə Sasanilərin, VIII əsrdə ərəblərin işğalçılıq siyasəti Qafqaz Albaniyası ərazisində də sənətkarlıq və ticarətə xeyli təsir göstərmişdir. Çünki adı çəkilən işğalçılar ölkənin ən qabiliyyətli sənətkarları ölkədən aparır və öz məqsədləri üçün onların əməklərindən istifadə edirdilər. Bu da sənətkarlığın müxtəlif sahələrinə öz təsirini göstərirdi.

Gəncə tarixi və memarlıq abidələri baxımından zəngin şəhərdir.Tarixən baş verən ictimai-siyasi hadisələr,təbii fəlakətlər və dağıntılar bir çox maddi mədəniyyət nümunələrinin itib batmasına və sıradan çıxmasına səbəb olsa da şəhər öz qədimliyini qoruyub saxlamışdır.

**Ədəbiyyat**

Cəfərov, Ə. Heydər Əliyev və Azərbaycan Arxeologiya elminin inkişafı. (2013, 29 Nisan). *Xalq qəzeti*. https://old.xalqqazeti.com/az/news/education/33459

Əliyev, H. (2009). *Azərbaycan, Gəncə*. Nurlan.

*Gəncənin Maddi Mədəniyyət Abidələri.* (2004). Nurlan.

Məmmədov A. M. (2008). *Gəncə və ətrafının tarixi – arxeoloji tədqiqi.(Ən qədim zamanlardan XIX əsrə qədər.* Gəncə.

Məmmədov, A. Gəncə şəhərinin tədqiqində yeni mərhələ başlayıb. (2014, 01 Mayıs). *525-ci qəzet.* https://525.az/news/18085-arif-memmedov-gence-seherinin-arxeoloji-tedqiqinde-yeni-merhele-baslayib.

Müseyibli, N. Heydər Əliyevin Siyasətində Azərbaycanın tarixi abidələri. (2023, 6 fevral). https://www.aznews.az/news/investigation/312040.html